**UOT 327 (091)**

# ÇİN VƏ ABŞ ARASINDAKI MÜNASİBƏTLƏRİNTARİXİNƏ BİR NƏZƏR

**Elgiz ABDURAHMANLI***

Məqalə redaksiyaya daxil olmuşdur: 24 dekabr 2023; çapa qəbul edilmişdir: 25 yanvar 2024; online-da çap edilmişdir: 21 mart 2024.

Received: 24th of December, 2023; accepted: 25th of January, 2024; published online: 21th of March, 2024.

**Açar sözlər:** *ÇXR, ABŞ, münaqişə, sanksiya, soyuq müharibə*

## Giriş

Amerika Birləşmiş Ştatları ilə Çin Xalq Respublikası arasında həm rəqabət, həm də əməkdaşlıq əlaqələri mövcuddur. Əksər analitiklər qeyd edirlər ki, bu münasibətlər mürəkkəb vəçoxşaxəlidir. Belə ki, iki ölkə nə müttəfiq, nə də düşməndir. Buna baxmayaraq, bir-birinə bağlı iqtisadiyyatları olan hər iki ölkə böyük gücə malikdir. Amerika icra hakimiyyəti Çin Xalq Respublikasını müəyyən sahələrdə rəqib, digərlərində isə tərəfdaş hesab edir.

Çin-ABŞ münasibətlərinin tarixi XVIII əsrin sonlarına təsadüf edir. Bu münasibət regiondakı müharibələrə, Çindəki mədəni inqilaba və sonrakı dəyişikliklərə baxmayaraq, bu günəqədər fasiləsiz olaraq davam etmişdir. İki ölkə arasındakı tarixi əlaqələrin keyfiyyətinə baxdığımız zaman, "kommersiya" xüsusiyyətinin dominant mövqedə olduğu başa düşülür. Dünyanın iki ən böyük iqtisadiyyatına malik olan Pekin və Vaşinqton arasındakı maliyyə gərginliyi, ticarət əlaqələrinin ölçüsü və keyfiyyəti də qlobal miqyasda münaqişələrə səbəb olanvacib məsələlərdən biridir. Bu iki ölkə arasındakı münasibətlər kifayət qədər mürəkkəb olduğu üçün "qarşılıqlı asılılığa" gətirib çıxarır. Lakin bu qarşılıqlı asılılığın milli təhlükəsizlik və xarici siyasət kontekstindəki fərqləri "eroziya" xarakteri almışdır.

Amerikanın Çinə qarşı olan siyasi marağı böyük tarixi dövrü əhatə edir. 1784-cü ildə Amerika Müstəqillik müharibəsinin tam sonunda, Amerika bayrağı altında üzən və "Empress ofChina" adlandırılan ilk ticarət gəmisinin təyinat limanı Çinin Quangdong şəhəri idi. Buradan başadüşürük ki, Amerikanın Pekinə marağı "iqtisadi" xarakter daşıyır.

Çünki bu illərdə Amerikanın İngiltərə ilə ticarət əlaqələri kəsildiyinə görə, yeni məhsullar əldə etmək məqsədilə diqqətini ticari bazarlar tapmağa yönəltmişdi. Digər tərəfdən, avropalılarınməhsul satışını həyata keçirdiyi Çin tərəfi, Çin məhsullarını almaq istəyən amerikalılara üstünlükverdi. İki ölkə arasında bu şəkildə başlayan əlaqələr XIX əsrin ortalarına qədər getdikcə davam etmişdir. Çinin nöqteyi-nəzərindən, çinlilər Amerikaya avropalı mühacirlər kimi "yeni imkanlarölkəsi" olaraq baxırdılar.

Belə ki, Çin Xalq Respublikası digər dövlətlərdən daha çox, ABŞ dövləti ilə arasındakı münasibətlərə üstünlük verirdi. Dünyanın aparıcı iqtisadi, siyasi və hərbi gücü və eyni zamanda,Soyuq Müharibədən sonra yeganə super güc olan Amerika, Çin üçün həm model, həm də bariz rəqibdir. İki ölkə bir-birinə o qədər də güvənməsə də, hər zaman ticari əlaqələri olub. Hər iki ölkə dünyanın ən böyük iki iqtisadiyyatına malik olduğu üçün aralarında maliyyə və kommersiya ilə bağlı iqtisadi əlaqələr mövcuddur. Bu cür əlaqələr

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: elgizabdurahmanli610@gmail.com

iki ölkəni bir-birindən asılı vəziyyətə saldığı üçün ondan imtina etmək mümkün deyil.

ABŞ və Çin dünyanın ən mühüm və mürəkkəb ikitərəfli münasibətlərinə malikdir. 1949-cuildən etibarən bu ölkələr Tayvan şəhərinə baş tutan səfər, ticari əlaqələr və iqlim dəyişikliyinin yaratdığı təbii fəlakətlər kimi məsələlərdə həm gərginlik, həm də əməkdaşlıq dövrlərini yaşayıblar. Çin Kommunist Partiyasının lideri Mao Zedong, kəndlilərin dəstəklədiyi kommunistlər Çan Kay Şekin millətçi hökumətini məğlub etdikdən sonra 1949-cu il oktyabrın 1-də Pekində Çin Xalq Respublikasını qurdu. Bu hadisələrin nəticəsi olaraq, Çianq və minlərlə əsgəri Tayvana qaçdı. İkinci Dünya Müharibəsi zamanı Yapon qüvvələrinin işğalına qarşı millətçilərə dəstək verən BMT, Taypeydə Çianqın sürgün edilmiş Çin Respublikası hökumətini dəstəklədi və ABŞ-ın Çinin materik hissəsi ilə bir neçə onilliklər ərzində davam edən məhdud əlaqələrinə zəmin yaratdı.

2049-cu ildə Çin Xalq Respublikası qlobal sferada iqtisadi və siyasi istiqamətlərdən aparıcıgücə malik olmaq niyyətində olduğu üçün, bu yolla inamla irəliləməkdədir. Pekinin bu niyyəti, xüsusən də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş Katibi Si Cinpinin "Yeni dövrünÇin xüsusiyyətli sosializmi haqqında" ideyaları Qərb aləmində, xüsusən də müasir dünyanın ən qüdrətli dövləti olan ABŞ-da ciddi narahatlıq doğurmaqdadır. On nəzəri və on dörd praktiki prinsipdən ibarət olan bu ideyalar ilk dəfə 2017-ci ildə ÇKP-nin XIX ümumi Çin qurultayında irəli sürülmüş və partiyanın nizamnaməsinə daxil edilmişdir. Beləliklə, 2018-ci il martın 11-də ÇXR-nın Konstitusiyasının on illiyində müvafiq dəyişikliklər edilmişdir.

Nəzəri prinsiplərin 1-ci maddəsində "Çin xüsusiyyətli sosializmin əsası və hərəkətverici qüvvəsi" kommunist partiyası elan edilir, partiyanın özəyinə tabe olmaq, Si Cinpinin və partiyanın Mərkəzi Komitəsinin nüfuzunu müdafiə etmək missiyası sosializmin və Çin millətininmaddi rifahının yüksəldilməsi, cəmiyyətin hərtərəfli modernləşdirilməsi, islahatların dərinləşdirilməsi, hüququn aliliyi və partiya intizamının təmin edilməsi kimi müəyyənləşdirilir. Praktiki prinsiplər isə nəzəri prinsiplərin əməli surətdə həyata keçirilməsini nəzərdə tutur, siyasi,hərbi, ictimai və elmi fəaliyyət sahələri də daxil olmaqla "əməyin bütün formalarında partiyanın rəhbərliyinin möhkəmləndirilməsi"ni tələb edilir. Eyni zamanda "iki yüzillik yubiley" mübarizəsinin nailiyyətlərini qoruyub saxlaya bilmək üçün Çin Xalq Azadlıq Ordusuna partiya rəhbərliyini möhkəmləndirməyin zəruri olduğu göstərilir. Bu yubileylər 2021-ci ildə ÇKP-nın yaradılması münasibətilə qeyd olunan yubileyi və ÇXR-nın 2049-cu ilə düşən yüzilliyidir.

## 1. Si Cinpinin ideyaları

ABŞ başda olmaqla, Si Cinpinin ideyalarının 12-ci və 13-cü praktiki prinsipləri Qərb ölkələrini daha çox narahat edir. Qeyd etdiyi 1-ci ideyada "bir ölkə, iki sistem" prinsipini möhkəmlətmək, Honkonq və Makaonun Böyük Çinə ardıcıl birləşdirilməsinə və çiçəklənmələrinə, eyni zamanda onların üzərində mərkəzi hakimiyyətin möhkəmləndirilməsi və Çinə üzvi inteqrasiyasına nail olmaq vəzifəsi elan edilir. Tərtib edilən 2-ci ideyada isə, "bəşəriyyətin vahidtaleli birliyinin formalaşdırılması" qlobal miqyasda strateji mahiyyət etibarilə öz ifadəsini tapmışdır [5].

Bu isə Qərbdə dünya nizamının Çin modelinin bərqərar edilməsi vahiməsini yaradır, müasirdünyanın hegemon qüvvəsi olan ABŞ-ı xüsusilə narahat edir və onun tərəfindən Çin amilinə qarşı əlbir mübarizə çağırışları getdikcə güclənir.

ABŞ-ÇXR münasibətlərindəki gərginlik yeni hadisə deyil. Belə ki, Covid-19 pandemiyasından əvvəlki dövrdə, ABŞ-la Çin arasındakı münasibətlər kifayət qədər gərgin idi. Çinin daxili və xarici siyasəti Qərbə meydan oxumaq cəhdi kimi dəyərləndirilir, bu, iki tərəf arasında, bir növ, yeni "soyuq müharibənin" artıq başlandığı və ya başlaya biləcəyinə səbəb kimi qiymətləndirilirdi. Başlanğıcını Çindən götürən Covid-19 pandemiyası bu mübahisələrə təsir edərək, onun açıq qarşıdurmaya çevrilmə sürətini artırdı.

Çin və ABŞ arasındakı mübarizə bir neçə sahədə gedir. ABŞ əsasən hərbi təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirirsə, Çin iqtisadi-siyasi, ticarət sahələrində və yumşaq güc mexanizmlərində öz səylərini gücləndirir. Bundan əlavə, Çin hərbi təhlükəsizlik sahəsində də müəyyən fəallıq göstərir. Buna misal olaraq, Pekinin Şərqi Çin dənizində artan hərbi aktivliyiniqeyd etmək olar.

Bu gün dünya imperiyası adlandırıla biləcək yeganə dövlət kimi Amerika Birləşmiş Ştatlarını göstərmək olar. Eks-prezident Cimmi Karterin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Zbiqnev Bjezinski təsdiq edirdi ki, Avrasiyaya nəzarət edən bir dövlət (yəni ABŞ) dünyaya hökmranlıq etmək iqtidarındadır. 2001-ci il sentyabrın 11-də Nyu-Yorkda törədilən terror hadisəsindən sonra, ABŞ İraq və Əfqanıstandakı rejimləri məğlub edərək, bu ölkələr üzərində nəzarəti ələ almışdı. Bununla da o, nəinki Avrasiyaya, həmçinin dünyaya hökmran olan dövlətə çevrilmişdir. Lakin 20 il sonra 2021-ci il avqustun 31-də ABŞ-ın öz qoşunlarını Əfqanıstan ərazisindən çıxarması, onun imperialist gücə malik olmasına dair bir sıra suallar ortaya çıxarmışdır. Bununla belə, ABŞ-la rəqabət aparmaq iqtidarında ola bilən yeganə dövlətdən, sözsüz ki, Çindən söhbət gedir.

Vaşinqton və Pekin əlaqələri 1979-2020-ci illərdə təxminən son 40 il ərzində enişli-yoxuşluolmuşdur. Lakin hər halda bu dövrü iki dövlət arasında dayanıqlı iqtisadi inteqrasiya mərhələsi kimi də xarakterizə etmək mümkündür. ABŞ və Çin arasında iqtisadi əlaqələrin genişliyi dünya iqtisadiyyatının sürətlə qloballaşmasına, xüsusən də, bu iki fövqəldövlət arasında qarşılıqlı razılaşma imkanları axtarışına töhfə vermişdir.

## 2. Co Baydenin hakimiyyətə gəlişi və ABŞ-Çin əlaqələri

Co Baydenin hakimiyyətə gəlişi ilə ABŞ-Çin əlaqələri pisləşməyə doğru getmiş, Vaşinqtonvə Pekin bir-birindən uzaqlaşmağa başlamışdır. Beynəlxalq nizamın dəyişməsi çərçivəsində Çinəqarşı qlobal cəbhə yaratmağa çalışan Bayden administrasiyasının məqsədi ənənəvi müttəfiqlik sistemini təmir edərək, Qərb cinahında yeni geosiyasi nizam yaratmaqdır. Bu baxımdan Baydenin prioritetlərindən biri, Donald Tramp dövründə Trans-Atlantik münasibətlərə dəyən ziyanı kompensasiya etmək və dərin geosiyasi xətalara yol vermədən çatları tez bir zamanda bərpaetməkdir [2, s. 89].

Bu yanaşma ABŞ dövlət katibi Entoni Blinkenin NATO-nun Brüsseldə keçirilən nazirlər toplantısındakı çıxışında özünü büruzə verdi. O, bu ittifaqın yalnız müdafiə və təhlükəsizlik ittifaqı olmadığını vurğulayıb və bununla bağlı olaraq, Bayden administrasiyasının iki məqsədiniirəli sürüb.

Birincisi, Trans-Atlantik geosiyasi blokunun ən mühüm sütununu təşkil edən NATO-nun strateji missiyası yenidən qurulmalıdır. Baydenin fikrincə, NATO təmir edilməli olan problemliittifaqdır. ABŞ-ın yeni administrasiyası NATO-nun Çinə münasibətinin necə olacağını və Trans-Atlantik geosiyasi oxunu necə balanslaşdıracağını müəyyən etmək istəyir.

Daha əvvəl "Çini anlamaq" mərhələsində olduqlarını deyən NATO-nun baş katibi Yens Stoltenberq də son vaxtlar Çinə qarşı "təhdid" sözlərindən istifadə etməyə başlayıb. Eynimünasibəti Avropa İttifaqının ali nümayəndəsi Cozep Borrel də Entoni Blinkenlə görüşü zamanınümayiş etdirib. Çinlə əməkdaşlıq imkanlarının olduğunu düşünən Avropa bu məsələnin stratejimünaqişəyə çevrildiyini anlayır. Çünki Bayden NATO-nu Rusiya və Çinə qarşı qurulacaq yeni Trans-Atlantik cəbhənin ən güclü sütunu hesab edir.

Hətta Entoni Blinken öz çıxışında Amerikanın Çinə qarşı mübarizəsində Avropaya seçim təklif etməsə də, onun gec-tez məsələni bu cür qoyacağı aydındır. Çünki yeni strateji muxtariyyətsiyasəti yürütməyə çalışan Avropa Birliyini narahat edən məsələlərdən biri də Çinlə münasibətdir. Çinə qarşı strateji birlik yaratmaq istəyən Amerika rəhbərliyinə "hə" demək Avropa üçün heç də birmənalı problem deyildir.

İkincisi isə ABŞ hökumətinin ciddi məqsədlərindən biri də, Qərb Trans-Atlantik

geosiyasi cəbhəsinin qırılan hissəsini bərpa etməkdir. ABŞ dövlət katibinin NATO-nun nazirlər toplantısında iştirakı və prezidentin videokonfrans vasitəsilə Avropa İttifaqı liderlərinə müraciətiAvropanın diqqətini Çin və Rusiyaya yönəldən mesajlardır [7].

Ötən əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində dünya sosializm sistemi və SSRİ-nin çökməsi ilə "soyuq müharibə" dövrü başa çatdıqdan sonra, ABŞ qlobal hegemon statusu iddia edə biləcək yeganə super güc oldu. Bununla belə, Çin nüfuzunun son 30 ildə görünməmiş artımı və dünyanın ikinci ən böyük iqtisadiyyatına çevrilməsi, onun tezliklə qlobal hegemon statusunu ABŞ-dan alacağı ilə bağlı fərziyyələrə səbəb olub. 2008-ci ildən güclənməyəbaşlayan qlobal iqtisadi böhran şəraitində Çin iqtisadiyyatı nəinki ziyan çəkmədi, əksinə, öz inkişafını davam etdirdi və yeni bazarlara daxil olmağa başladı. Bunu Çinin hegemonluq meyllərikimi dəyərləndirməyə başladılar.

Böhran zamanı Çin Kommunist Partiyasının elitası ABŞ-ın geosiyasi təsirinin azalacağını proqnozlaşdırırdı və bunun fonunda Çin öz geosiyasi mövqelərini inkişaf etdirmək və gücləndirmək qərarına gəlmişdir [2, s. 53].

2017-ci ildə Trampın ABŞ-ın dövlət başçısı kimi fəaliyyətə başlaması ilə Çin "qlobal hegemonluq" fantaziyasını reallaşdırmaq barədə ciddi düşünməyə başladı. Faktiki olaraq, Çin üçün ideal fürsət yaranmışdı: ÇXR rəhbərləri ABŞ-ın bütün müttəfiqləri ilə əlaqələrinin pisləşdiyini, müxtəlif qaynar nöqtələrdəki hərbi qüvvələrini geri çəkdiyini və qlobal geosiyasi səhnədəki mövqeyinin sürətlə zəiflədiyini görürdülər. Üstəlik, Tramp son dərəcə sərt anti-Çin ritorikası ilə seçilirdi və bu, Çində ABŞ-a qarşı əks təsiri gücləndirmək üçün ideal zəmin yaratmışdır.

C.Bayden prezidentliyə başlayan kimi ilk mesajı "Amerika qayıdır" oldu və Vaşinqton ənənəvi müttəfiqlərinə doğru dönüş etdi. Qısa müddətdə müttəfiqlərlə münasibətlər yaxşılaşdırıldı. Beləliklə, Çinin 2017-2020-ci illərdə gördüyü "zəifləyən ABŞ" imici darmadağınoldu. ABŞ Baydenin hakimiyyəti dövründə Çinə qarşı hərbi-siyasi təhdidlərə başladı. Bununla belə, AUKUS (ABŞ, BB, Avstraliya) hərbi ittifaqını yaratmaqla Çinə "ABŞ münaqişəyə hazırlıqgörür" ultimatumunu göndərdi [4, s. 156].

Hər iki dövlət arasındakı siyasi münasibətlər doğrudan da mənfi istiqamətə yönəlməyə davam edir. Bu, Çin Kommunist Partiyası elitasının ritorikasından, ABŞ-la əməkdaşlıq tərəfdarlarına qarşı pis münasibətdən və getdikcə daha sərt təbliğatdan tutmuş Çinin daxili siyasi sferasında da hiss edilir. Akademik Ziyad Səmədzadə "Çin qlobal dünya iqtisadiyyatında" adlı fundamental monoqrafiyasında Den Syaopinə istinad edərək yazır: "Çinin əsasını sosializm təşkiletməlidir. Bununla yanaşı, ölkənin bəzi rayonlarında, məsələn, Syanqanda və Tayvanda kapitalizmin inkişafına yol vermək olar. Qitədə bir sıra şəhərlərin açılması, sosialist iqtisadiyyatına əlavə kimi oraya xarici kapitalın qəbul edilməsi sosialist cəmiyyətinin məhsuldarqüvvələrinin inkişafının xeyrinə olacaqdır" [1, s. 148]. Bununla da, sosializmin Çin modelini daha cəlbedici etməyə çalışırlar.

Çinin xarici siyasətində anti-ABŞ oriyentasiyası dövlətin əsas siyasi xəttinə çevrilir. Məsələn, Çinin 2022-ci ildə elan edilən "Qlobal Təhlükəsizlik Təşəbbüsü"ndə ABŞ qatı təcavüzkar, Çin isə sülhsevər "işıq ocağı" kimi təqdim edilir. Çində düşünürlər ki, dünya ABŞ hegemonluğundan qurtulmalı, Vaşinqton dünyanın mərkəzi olmamalıdır. Eyni zamanda, hər birölkə qlobal inkişafın bəhrəsini görməli, inkişaf etməkdə olan ölkələrin səsi eşidilməlidir və sözsüz ki, Çin bunu təmin edən ölkə olmalıdır.

Qarşılıqlı ittihamları alovlandıran sərt ritorika ilə yanaşı Çin administrasiyasını ən çox narahat edən məsələlərdən biri də sanksiyalardır [6]. Pekinin fikrincə, ABŞ sanksiyalardan Çininartan iqtisadi inkişafına mane olmaq üçün geosiyasi silah kimi istifadə edir. Bir çox ölkəyə tətbiq etdiyi sanksiyalara görə Çində ABŞ-ı "Sanksiyalar Birləşmiş Ştatları" adlandırırlar.

Çinlə böyük qarşıdurmaya hazırlaşan ABŞ siyasi gedişlərlə yanaşı hərbi, siyasi və

iqtisadi platformalar yaradır, yeni qanunlar qəbul edir, həmçinin iqtisadi təzyiqi genişləndirir. 2023-cü ildə bu istiqamətdə aparılan işlərə nəzər yetirək:

- 2023-cü il, 11 yanvar: ABŞ konqresinin nümayəndələr palatası "Çinlə rəqabət" komitəsinin yaradılmasının lehinə səs verib;
- 2023-cü il, 2 mart: ABŞ Maliyyə Nazirliyi 28 Çin şirkətinə qarşı sanksiya tətbiq edib;
- 2023-cü il, 12 aprel: Sanksiya siyahısına daha 12 Çin şirkəti əlavə edilib.

ABŞ siyasətçiləri dünya hegemonluğunda əsas rəqibləri hesab etdikləri Rusiya ilə "məsələnibitirdikdən" sonra, ÇXR-ın beynəlxalq təsirinin artmasına qarşı mübarizəni gücləndirməyi düşünürlər. Bu isə sosializmi öz "modeli" üzrə qoruyub saxlamaqda israrlı olan ÇXR-lə özünü kapitalizmin "bayraqdarı" hesab edən ABŞ arasındakı münasibətləri SSRİ dövrünün "soyuq müharibə" vəziyyətinə gətirib çıxarmazmı?

Bu təhlükə kifayət qədər real görünsə də, son zamanlar qloballaşma prosesinin daha da dərinləşməsi, o cümlədən, dövlətlərarası istehsal şəbəkələrinin dünyanı hörümçək toru kimi bürüməsi, bu iki fövqəldövləti qarşılıqlı münasibətlərində "soyuq müharibə" mühiti yaratmağın səmərəsizliyini dərk edərək, konstruktiv münasibətlər qurmaq üçün yollar axtarışına vadar edir. Belə bir məqamın yetişdiyi 2022-ci il noyabrın 15-16-da İndoneziyanın Bali adasında keçirilən G20 sammitində hiss olunsa da, Rusiyanın Ukraynada həyata keçirdiyi "xüsusi hərbi əməliyyata"görə məruz qaldığı sanksiyalara ÇXR-in qoşulmaması ABŞ və müttəfiqlərinin onunla münasibətlərinə əlavə soyuqluq gətirir. Belə görünür, ABŞ-la Çin arasında gərginliyin artması qaçınılmazdır.

Bununla belə, getdikcə geniş vüsət alan diskurs müharibə qarşılıqlı ittihamlarla dolu bəyanatlarla yanaşı ideoloji, iqtisadi, texnoloji və hərbi sahələrdə də çoxşaxəli rəqabət özünü göstərir. Lakin bütün bu mübarizə sahələri və qarşılıqlı sərt ritorika, yeni "soyuq müharibənin" başladığını deməyə əsas vermir [3, s. 75].

Belə ki, Çin artıq 1980-ci illərdə olduğu kimi ABŞ-a və digər ölkələrə sadəcə yüngül sənaye məmulatları ixrac edən ölkə deyildir, bir çox dövlətlərə yüksək texnologiyalar təklif etməkdədir.Xüsusilə, siyasi sahədə fəaldır və çevik diplomatiya nümayiş etdirir. Halbuki ABŞ rəhbərliyinin dünyada formalaşan yeni reallığı nəzərə alması, o cümlədən Çinlə konstruktiv əlaqələr qurmağameyl göstərməsi daha məhsuldar olardı. Hər halda, Vaşinqton-Pekin münasibətlərinin dinamikasıbütövlükdə bəşəriyyətin gələcək taleyində, o cümlədən, yeni geosiyasi dünya nizamının forma- laşmasında müəyyənedici amil olaraq qalır.

**Nəticə**

Özünü demokratiyanın qalası hesab edən ABŞ-a görə, XXI əsrdə avtoritar kommunizmin yayılması və inkişafı bütün dünya üçün böyük bir təhlükədir. Belə ki, bu qəddar avtoritarizm təhlükəsi Çinin sülhsevər "siması" altında gizlənməkdədir. Odur ki, Vaşinqtonun dünya hegemonluğunu qoruyub saxlaması üçün seçdiyi mübarizə növü, ABŞ və Çin silahları mahiyyətini daşıyan dollar və yuan arasındakı mübarizə kimi deyil, mənəvi dəyərlər, avtoritarizm və demokratiya arasındakı qlobal mübarizə kimi qələmə verilir.

ABŞ-Çin münasibətlərinə sıravi dövlətlərarası münasibətlər kimi baxmaq düzgün olmazdı, çünki dünyanın bu iki fövqəldövləti qlobal geosiyasətə ciddi təsir etmək imkanına malikdir. Beləliklə, Vaşinqton-Pekin qarşıdurmasının inkişaf meyli aşkar göstərir ki, indiki mərhələdə bu problem daha da ciddiləşir. ABŞ və Çinin mübarizəsi unikal bir məcrada davam edir. 1979-cu ildən etibarən kəskin hala çevrilən ABŞ və Çin arasındakı münasibətlərin qarşıdan gələn dövrdədaha da kəskinləşəcəyini, müxtəlif sahələrdə gərginliyin artmaqda davam edəcəyini proqnozlaşdırmaq olar.

## ƏDƏBİYYAT

1. Səmədzadə Z. Çin qlobal dünya iqtisadiyyatında. Bakı: Elm və təhsil, 2009, 608 s.
2. Bown C.P. Kolb M. Trump's Trade War Timeline; An Up-to Date Guide, Peterson Institute for International Economics, Trade and Investment Policy Watch BlogWashington, 2019, 211 p.
3. Suisheng Z, Guo D. A New Cold War? Causes and Future of the Emerging US-China Rivalry // Vestnik RUDN. International Relations, 19(1), 2019, p.9-21
4. Варфаловская Р.А. Развитие внешней торговли Китая в условиях глобализации и “торговых войн” США, М.Российская Академия Наук, 2018, 276 с.
5. https://www.google.com/amp/s/www.bbc.com/turkce/haberler-dunya 59726695.amp
6. https://www.google.com/amp/s/www.bbc.com/turkce/haberler-dunya 59726695.amp
7. https://www.tepav.org.tr/tr/haberler/s/10515
8. https://www.insamer.com/tr/abd-ve-c-in-i-liskilerinde-i-yilesme-mu-mku-n-mu.html

***Резюме***

***Эльгиз Абдурахманлы***

***Взгляд на историю отношений между Китаем и США***

Статья посвящена взаимоотношениям двух сверхдержав современности, обладающих самой мощной экономикой – КНР и США. Отмечается, что выдвинутые Генеральным Секретарем Си Цзиньпином идеи о социализме с китайской спецификой новой эпохи впервые в 2017 г., включенные в устав партии и преамбулу Конституции КНР, продолжают вызывать беспокойство на Западе, особенно у гегемонистской силы современного мира США. Хотя после установления дипломатических отношений междуними в1979 г. чувствовалось относительное продвижение в их взаимоотношениях, нарядус дискурсивной войной, все более расширяющаяся в период президентства Дж. Байдена, вырисовывается многосторонняя конкуренция и в идеологической, экономической, технологической и военной областях.

Отношения между Вашингтоном и Пекином были напряженными, переживали взлеты и падения на протяжении почти 40 лет, с 1979 по 2020 год. Однако этот период можно охарактеризовать как период стабильной экономической интеграции между двумя государствами. Расширение экономических отношений между США и Китаем способствовало быстрой глобализации мировой экономики, особенно ускорению мирногопроцесса между двумя сверхдержавами. Но во время правления Джо Байдена отношения междуСША и Китаем начали ухудшаться, а Вашингтон и Пекин отдалились друг от друга.Китай больше не является просто экспортером текстиля в США и другие страны, как это было в 1980-е годы. Также сегодня она снабжает многие страны высокими технологиями и ведет активную дипломатию. Именно руководство США не понимает этой новой реальности в регионе и не прилагает усилий для установления конструктивных отношенийс Китаем.

Делается вывод в статье о том, что хотя эти области борьбы и взаимная острая риторика не дает основания пока говорить о начале «холодной войны», но все же можно прогнозировать дальнейшее продолжение напряженности во взаимоотношениях между США и КНР в обозримом будущем.

**Ключевые слова*:*** *КНР, США****,*** *конфликт, санкции, холодная война*

***Summary***

***Elgiz Abdurahmanli***

***A Look at the History of Relations Between China and the U. S***

The article discusses the relationship between the two most powerful economies of the modern world, the Czech Republic and the United States. It is noteworthy that for the first time in2017, the 19th General Assembly of the CCP was held in connection with the order of the Party and was included in the foreword to the Constitution of the KHR Xi Jingrage, the chief secretary of the CCP of the MC, whose ideas on the "right to Chinese socialism of the day" are of serious concern in the Western world. Although

relations have developed steadily since the establishmentof diplomatic relations between the two countries in 1979, the growing discourse during the presidency of Joe Biden was characterized by broad competition in the ideological, economic, technological and military fields.

Relations between Washington and Beijing have been tense and ups and downs for nearly 40 years from 1979 to 2020. However, this period can be characterized as a period of stable economic integration between the two states. The expansion of economic relations between the United States and China has contributed to the rapid globalization of the world economy, especially to the acceleration of the peace process between the two superpowers. But during JoeBiden's administration, US-China relations began to deteriorate, and Washington and Beijing drifted apart. China is no longer just an exporter of textiles to the US and other countries, as it was in the 1980s. Also, today it equips many countries with high technologies and conducts activediplomacy. It is the US leadership that does not understand this new reality in the region and doesnot make efforts to establish constructive relations with China.

The article concludes that while all these struggles and tough rhetoric are not grounds to talkabout the beginning of a new "conflict," it predicts that the US-China relationship will intensify in the coming days and that tensions in various areas will continue to increase.

**Key words**: *PRC, USA, Conflict, Sanctions, Cold War*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d., Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.